Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

M.B.Babayevin sədrliyi ilə,
üzvlər–N.F.Nəsibova, N.A.Hacıyeva, F.İ.Məmmədov,
Ə.M.Qarayeva, R.N.Hüseynov

etiraz ərizəsini verən iddiaçı- İstehsalat Birliyi "Konti" Xüsusi Səhmdar Cəmiyyəti /ünvan: Ukrayna, Donetsk rayonu, Kostiantynovka şəhəri, İnternatsionalna küçəsi 460/, Ticarət Evi "Konti" Məhdud Məsuliyyətli Cəmiyyəti /ünvan:Ukrayna, Kiyev şəhəri, 04071, Podolski rayonu, Vvedenskaya küç., ev 4/ və "KONTI-RUS" /ünvanı –Kursk şəhəri, 305000, Zolotaya 13 küçəsi, Rusiya Federasiyası (RU)/ Səhmdar Cəmiyyətinin nümayəndəsi Qəşəmov Fuad Azad oğlunun,

qarşı tərəf, "KOROĞLU" MMC-nin /AZ1040, Bakı şəhəri, Bakıxanov qəs., Bəşir Bünyadov küçəsi 17-A (AZ)/ nümayəndələri Ağaşirinov Ağalar Əzizağa oğlunun və Babaşov Emin Söhbət oğlunun iştirakları ilə,

M.B.Babayevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

24.11.2017 il tarixdə "Koroğlu" MMC-yə məxsus "Крем-Йогурт" adlı kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatına qarşı (30-cu (konfetlər) və 35-ci (30-cu sinifdə göstərilən əmtəələrin satışı üzrə xidmətlər) siniflərin əmtəələri və xidmətləri 2016 1146 nömrəli qeydiyyat) İstehsalat Birliyi "Konti" Xüsusi Səhmdar Cəmiyyəti, Ticarət Evi "Konti" Məhdud Məsuliyyətli Cəmiyyəti və "KONTI-RUS" Səhmdar Cəmiyyətinin nümayəndəsi A.M.Kərimov tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində göstərilir ki, İstehsalat Birliyi “Konti” Xüsusi Səhmdar Cəmiyyəti (bundan sonra “Konti İB”) tərəfindən 10 oktyabr 2014-cü il tarixində “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı 192001 nömrəsi ilə Ukrayna Respublikasında qeydiyyata alınmışdır. 10 may 2017-ci il tarixdən etibarən “Крем-Йогурт”adlı əmtəə nişanın sahibi Ticarət Evi “Konti” Məhdud Məsuliyyətli Cəmiyyətidir (bundan sonra “Konti TE”). Eyni zamanda “KOROĞLU” MMC tərəfindən “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı 30 və 35-ci siniflərin əmtəələri və xidmətləri üzrə 12 oktyabr 2016-cı il tarixində 2016 1146 nömrəsi ilə qeydiyyata alınmışdır. Konti İB tərəfindən “Крем-Йогурт”adlı əmtəə nişanın 30-cu sinfin əmtəələri üzrə 17 mart 2015-ci il tarixində 47468 nörməsi ilə Qazaxıstan Respublikasında qeydiyyata alınmışdır. 2015-ci ildən etibarən “Крем-Йогурт” adlı əmtəə nişanın sahibi “Konti-Rus” Səhmdar Cəmiyyətidir (bundan sonra “Konti SC”). Konti SC tərəfindən 30-cu sinifin əmtəələri üzrə 10 oktyabr 2013-cü il tarixində İR 1188880 nömrəsi ilə “Крем-Йогурт”adlı əmtəənişanı ÜƏMT (Ümumdünya Əqli Mülkiyyət Təşkilatı) tərəfindən beynəlxalq qeydiyyata alınmışdır. Lakin ki, bu beynəlxalq qeydiyyatın təyinat ölkələrin siyahısında Azərbaycan Respublikası göstərilməmişdir. Etiraz ərizəsi ilə bağlı iddiaçı qismində həm Konti İB, həm Konti TE, həm də Konti SC çıxış edir.

Əmtəə nişanların təsviri hissələrindən göründüyü kimi, müqayisə edilən əmtəə nişanları təsviri hissədən, rənglərin quraşmasından və sözlərdən ibarət yaradılmış əmtəə nişanlarıdır. “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.8.2-ci bəndində qeyd edilmişdir ki, Kombinasiyalı nişanların (işarələrin) oxşarlığının təyini zamanı bu Qaydaların 29.6.1—29.6.5 və 29.7.1—29.7.3 bəndlərində göstərilən əlamətlərdən istifadə olunur, həmçinin həmin əlamətlərin mənasının eyni və ya oxşar elementlərlə iddia olunan nişanda (işarədə) olması tətbiq olunur. Əmtəə nişanların oxşarlığını müəyyən edərkən, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.6.1-ci “Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir”, 29.6.2-ci “Səs üzrə (fonetik) oxşarlıq”, 29.6.3-cü “Qrafiki (görünüşlü) oxşarlıq”, 29.6.4-cü “Məna etibarı ilə”, 29.6.5-ci “Bu Qaydaların 29.6.1-29.6.4 bəndlərində göstərilənlərin hər biri istər ayrıca və istərsə də müxtəlif quraşmalarda (birləşmələrdə) nəzərə alına bilər”, 29.9.1-ci (“Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır”) və 29.9.2-ci (“Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır”), bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır. Müqayisə edilən kombinasiya edilmiş əmtəə nişanları həm qrafik, həm də şifahi hissələri tam olaraq üst-üstə düşür. Əmtəə nişanlarının sözlərin ümumi görünüşlü (müşahidə) təəssüratı, şriftin növü, hərflərin xarakteri nəzərə alınmaqla qrafiki yazılış (məsələn, çap və ya əllə yazılmış hərflər), hərflərlə yazılmış sözlərin əlifbası, rənglərin uzlaşması üst–üstə düşür. Həm Konti TE-nə məxsus olan əmtəə nişanında rus dilində“Крем-Йогурт” sözləri yazılıb, həm də Koroğlu MMC-yə məxsus olan əmtəə nişanında “Крем-Йогурт” sözləri yazılıb və göründüyü kimi onlar tam olaraq eynidir (eyni şrift, eyni əlifba, eyni şrift növü və s.). Əmtəə nişanlarında ideya uyğunluğu, xarici forması, eyni simmetriyanın mövcud olması, və xüsusiyyətləri (naturallığı) eynidir. Əmtəə nişanlarının təsviri hissəsində üç növ giləmeyvə göstərilib - çiyələk, moruq və qaragilə.Müqayisə edilən əmtəə nişanlarının hər birində giləmeyvələrin sayı eynidir, onlar eyni formada və eyni simmetriyada yerləşdirilib. “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.3-cü maddəsinə əsasən, iddia olunan nişan başqa nişanlarla o vaxt qarışdırılacaq dərəcədə uyğun hesab edilir ki, o, aralarında müəyyən fərqli elementlərin olmasına baxmayaraq, həmin nişanlarla eyni təsəvvür yaradır. Müqayisəsi aparılan əmtəə nişanlarındakı cüzi fərqlər həmin qəbildən olan fərqlərə aid olmaqla, əmtəələrin qarışdırılacaq dərəcədə uyğunluğuna səbəb olur. Konti SC-

yə məxsus olan “Крем-Йогурт” adlı əmtəə nişanın (47468 nörməsi ilə Qazaxıstan Respublikasında qeydiyyat) və Koroğlu MMC-yə məxsus olan “Крем-Йогурт” adlı əmtəə nişanı ilə müqayisəsi zamanı açıq-aydın görünür ki, bu nişanlarda istifadə olunan loqotiplər eynidir. iddiaçılar (Konti İB və Konti TE) hesab edirlər ki, “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı (192001 nömrəsi ilə Ukrayna Respublikasında qeydiyyat) və “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı (2016 1146 nömrəsi ilə qeydiyyat) qarışdırılacaq dərəcədə bənzər olan nişanlardır. İddiaçı Konti SC hesab edir ki, “Крем-Йогурт” adlı əmtəə nişanın (47468 nörməsi ilə Qazaxıstan Respublikasında qeydiyyat) və Koroğlu MMC-yə məxsus olan “Крем-Йогурт”adlı kombinasiya edilmiş əmtəə nişanı (2016 1146 nömrəsi ilə qeydiyyat) qarışdırılacaq dərəcədə bənzər olan nişanlardır. Koroğlu MMC-nin Konti şirkəti ilə bilavasitə əlaqəsi var idi. Belə ki, Konti SC və Koroğlu MMC arasında 30 dekabr 2010-cu il tarixində imzalanmış 893 nömrəli və 31 dekabr 2012-ci il tarixinədək qüvvədə olan, 10 mart 2016-cı il tarixində imzalanmış 0184/8/16 nömrəli və 31 dekabr 2016-cı il tarixinədək qüvvədə olan qənnadı məmulatların təchizatı üzrə müqavilələr bağlanmışdır. Həmin müqavilələrə əsasən, Koroğlu MMC Konti şirkətinin qənnadı məmulatlarının Azərbaycanda satışını təşkil edirdi. Həmçinin Koroğlu MMC və Konti SC arasında 893 nömrəli müqavilənin müddətinin uzadılması barədə 07 sentyabr 2011-ci il tarixində və 09 sentyabr 2013-cü il tarixində əlavə razılaşmalar imzalanmışdır. Konti və Koroğlu arasında olan axırıncı müqavilənin müddəti 31 dekabr 2016-cı il tarixində bitmişdir. Konti şirkəti Koroğlu MMC-ni qənnadı məmulatlarının Azərbaycanda satışı məqsədi ilə təchiz edirdi və bu məmulatların arasında həmçinin “Крем-Йогурт” adlı məmulat mövcüd idi. Müqavilələrdən görünür ki, Koroğlu MMC-nin Konti TE, həm Konti SC və həmçinin Konti İB ilə əlaqəsi var idi. Koroğlu MMC “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsini və “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasın”ın 6 septies maddəsinin müddəalarını pozaraq Konti şirkətinin icazəsi olmadan Konti şirkətinin nişanını öz adına qeydiyyata alınmasına dair Azərbaycan Respublikasında iddia ərizəsi vermişdir. Etiraz ərizəsinə əlavə edilmiş bəyannamələr, hesab-fakturalar, qaimələr, spesifikasiyalardan görünür ki, “Крем-Йогурт” adlı məmulat Azərbaycan Respublikasına Koroğlu MMC-yə məxsus “Крем-Йогурт” adlı əmtəə nişanın qeydiyyata alınmasından əvvəl idxal olunurdu. Koroğlu MMC Konti şirkətinin distribyutoru olmuş və onun mallarını Azərbaycan Respublikasında təchiz etmiş və məhsulları ilə yaxından tanış idi. Belə ki, Koroğlu MMC “Крем-Йогурт” adlı əmtəə nişanının qeydiyyata alınmasına dair iddia ərizəsini istehlakçılar arasında yanlış təəssüratın yaradılması məqsədi ilə vermişdir. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanunun5-ci maddəsinin (f) bəndinə əsasən, istehlakçıları əmtəənin coğrafi mənşəyi ilə əlaqədar yanılda bilən nişanların qeydə alınmasına yol verilmir. Eyni zamanda “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsinin birinci hissəsinin (ç) bəndinə əsasən, əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr və ya xidmətlər üzrə başqa şəxs tərəfindən istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan (tanınmış olan) əmtəə nişanların qeydə alınmasına yol verilmir. “Крем-Йогурт” əmtəə nişanı altında Azərbaycan Respublikasında istehsal olunan əmtəələr bazara buraxılsa belə, əmtəə nişanın adının kiril qrafikalı əlifbada, rus dilində verilməsi istehlakçıda qeyd olunan əmtəələrin Rusiya Federasiyasında istehsal olunduğu təsəvvürü yaradır. O cümlədən, “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsi və “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”nın 10 bis maddəsi pozulmuşdur. Koroğlu MMC Konti şirkətinə məxsus olan və əvvəlcədən qeydiyata alınmasına dair iddia edilmiş “Крем-Йогурт” adlı əmtəə nişanı ilə qarışdırılacaq dərəcədə bənzər olan “Крем-Йогурт” adlı əmtəə nişanın qeydiyyata alınmasına dair iddia ərizəsi vermiş və sonradan Azərbaycan Respublikasında satışını təşkil etmişdir. Koroğlu MMC “Крем-Йогурт” adı altında məhsulları Azərbaycan Respublikasında sataraq istehlakçılar arasında yanlış təəssürat yaratmış və bununla da Konti şirkətinin

nüfuzuna zərər vurmuşdur. Yuxarıda göstərilənləri nəzərə alaraq, “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanının 2016 1146 saylı qeydiyyatının etibarsız sayılması barədə qərar verilməsi Apellyasiya Şurasından xahiş edilmişdir.

İddiaçının nümayəndəsi Qəşəmov Fuad Azad oğlu çıxış edərək etiraz ərizəsində qeyd olunanları müdafiə etdiyini bildirmiş və etiraz ərizəsinin təmin edilməsini xahiş etmişdir.

“KOROĞLU” MMC-nin nümayyəndəsi A.Ə. Ağaşirinov öz çıxışında qeyd etdi ki, etiraz ərizəsində qeyd olunanları qəbul etmir. Koroğlu MMC tərəfindən “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı 12 oktyabr 2016-cı il tarixdə 30 və 35-ci sinifin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmışdır. Konti şirkətinə məxsus əmtəə nişanı isə yalnız Ukrayna və Qazaxıstanda qeydiyyata alınmışdır. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin a və b bəndlərinə əsasən Azərbaycan respublikasında qeydiyyata alınmış nişanlar müqayisə edilə bilər. Həmçinin həmin Qanunun 29-cu maddəsi bilavasitə 6-cı maddə ilə əlaqəli olduğu üçün bu madəllərə istinad əsassızdır, onagörə ki, Konti şirkətinə məxsus əmtəə nişanı Azərbaycan respublikasında qeydiyyata alınmamışdır. Konti SC ilə Koroğlu MMC arasında müqavilələrin olmasına baxmayaraq, mübahisə obyekti olan əmtəə nişanları adı altında olan məhsullar Koroğlu MMC tərəfindən Azərbaycan Respublikasına idxal edilməmiş və həmin müqavilələrdə də bu barədə heç bir məlumat mövcud deyil. Göstərilənləri nəzərə alaraq etiraz ərizəsi əsassız olduğu üçün təmin edilməməsi barədə qərar verilməsini xahiş etmişdir.

“KOROĞLU” MMC-nin nümayəndəsi E.S.Babaşov digər nümayəndənin dediklərini təsdiq etmiş və etiraz ərizəsinin təmin edilməməsi barədə qərar verilməsini xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçıların nümayəndəsi F.A.Qəşəmovun və “KOROĞLU” MMC-nin nümayyəndələrinin çıxışlarını dinləyib, hesab etdi ki, iddia təmin edilməməlidir.

Apellyasiya şurası müəyyən etdi ki, “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı 

30-cu sinifin “konfetlər” əmtəələri üzrə və 35-ci sinifin “30-cu sinifdə göstərilən əmtəələrin satışı üzrə xidmətlər” xidmətləri üzrə 12.10.2016 il tarixində “KOROĞLU” MMC-nin /AZ1040, Bakı şəhəri, Bakıxanov qəs., Bəşir Bünyadov küçəsi 17-A (AZ)/ adına Azərbaycan Respublikasında 2017 0026 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 05.08.2016). Əmtəə nişanının qeydiyyatında qeyd edilmişdir ki, “əmtəə nişanında “Konfirella” söz işarəsindən və təsviri hissədən başqa qalan işarələr müstəqil hüquqi mühafizə obyekləri deyildirlər”;Əmtəə nişanını rəngi: tünd göy, göy, ağ, tünd qırmızı, yaşıl.

“Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı 

30-cu sinifin-konfetlər əmtəələri üzrə 10.10.2014 il tarixində İstehsalat Birliyi “Konti” Xüsusi Səhmdar Cəmiyyətinin /ünvan: Ukrayna, Donetsk rayonu, Kostiantynovka şəhəri, İnternatsionalna küçəsi 460/ adına Ukrayna Respublikasında 192001 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 07.10.2013); 10 may 2017-ci il tarixində “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanına dair mülkiyyət hüququ Ticarət Evi “Konti” Məhdud Məsuliyyətli Cəmiyyətinə/ünvan:Ukrayna, Kiyev şəhəri, 04071, Podolski rayonu, Vvedenskaya küç., ev 4/ verilmişdir.

“Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı 30-cu sinif əmtəələri üzrə 17.03.2015 il tarixində İstehsalat Birliyi “Konti” Xüsusi Səhmdar Cəmiyyətinin /ünvan: Ukrayna, Donetsk rayonu, Kostiantynovka şəhəri, İnternatsionalna küçəsi 460/ adına Qazaxıstan Respublikasında 47468 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 25.12.2013); Daha sonra “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanına dair müstəsna hüquq “KONTI-RUS” /ünvanı –Kursk şəhəri, 305000, Zolotaya 13 küçəsi, Rusiya Federasiyası (RU)/ Səhmdar Cəmiyyətinə verilmişdir.

“KONTI-RUS” Səhmdar Cəmiyyəti tərəfindən “Крем-Йогурт”adlı əmtəə nişanı



10.10.2013-cü il tarixində 30-cu sinif (konfetlər) əmtəələri üzrə İR 1188880 saylı beynəlxalq qeydiyyata alınmışdır. Lakin beynəlxalq qeydiyyatın təyinat ölkələrinin siyahısında Azərbaycan Respublikası göstərilməmişdir (təyinat ölkələri: Belarusya, Tacikistan, Latviya, Litva, Moldova, İran İslam Respublikası, Ermənistan)

Apellyasiya şurası təqdim edilən sənədləri və materialları (məlumatları) araşdıraraq müəyyən etdi ki:

“KONTİ-RUS” və “KOROĞLU” MMC arasında qənnadı məmulatlarının təchizatı üzrə 30 dekabr 2010-cu il tarixində 893 nömrəli müqavilə imzalanmışdır. 07 sentyabr 2011-ci il tarixində mal çatdırıldığı zaman yükün kim tərəfindən alınacağı barədə 893 nömrəli müqaviləyə əlavə razılaşma imzalanmışdır. 09 yanvar 2013-cü il tarixində 893 nömrəli müqavilənin müddətinin uzadılması barədə əlavə razılaşma bağlanmış və müqavilə 31 dekabr 2013-cü il tarixinədək qüvvədə olmuşdur. “KONTİ-RUS” və “KOROĞLU” MMC arasında 10 mart 2016-cı il tarixində 0184/8/16 nömrəli müqavilə imzalanmış və 31 dekabr 2016-cı il tarixinədək qüvvədə olmuşdur; (bəyannamələr, hesab-fakturalar, qaimələr, spesifakisayalar və s).

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinə əsasən, əmtəə nişanının qeydiyyatı aşağıdakı hallarda etibarsız hesab edilir: “əmtəə nişanı qüvvədə olduğu müddətdə, müəyyən növ mallarda ümumi şəkildə istifadə olunan nişanlara çevrildikdə; əmtəə nişanı qüvvədə olduğu müddətdə tam və ya qismən, “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”nın iştirakçısı olan dövlətlərin hər hansı birində, əmtəə nişanının sahibi ilə bilavasitə və ya dolayı yolla əlaqəsi olan şəxsin, nümayəndənin, agentin adına, Konvensiyanın 6 septies maddəsinin tələbləri pozulmaqla verildikdə”.

“Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasın”ın 6 septies maddəsində qeyd olunmuşdur: Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”-nın üzv ölkələrinin hər hansı birində nişan sahibi olan şəxsin müvəkkili və ya nümayəndəsi (distribyutoru), həmin nişan sahibinin icazəsi olmadan, “Konvensiyanın” həmin üzv ölkələrinin birində və ya bir neçəsində, həmin nişanı öz adına qeydiyyata alınması üçün təqdim edərsə, nişan sahibi qeydiyyata təqdim edilmiş nişana qarşı çıxmaq və ya onun ləğv edilməsinə və əgər həmin müvəkkil və ya nümayəndə (distribyutor) öz hərəkətinə bəraət qazandırmasza və ölkə qanunvericiliyi ilə bu nəzərdə tutulmuşsa, həmin qeydiyyatın onun sahibliyinə verilməsi hüququna malikdir.

İş materiallarına əlavə edilmiş bəyannamələr, hesab-fakturalar, qaimələr, spesifikasiyalardan görünür ki, “Крем-Йогурт” adlı məmulat “Koroğlu” MMC tərəfindən Azərbaycan Respublikasına 2013-cü il tarixində idxal edilmiş və ondan sonrakı tarixlərdə idxal olunması barədə sübutlar mövcud deyil. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən verilmiş 04 aprel 2018-ci il tarixli müşayiət məktubu ilə təqdim edilmiş idxal sənədlərindən və iş materiallarına əlavə edilmiş gömrük bəyannamələri, hesab-fakturalar, qaimələr, spesifakisayalardan görünür ki, 2016-cı il ərzində “Крем-Йогурт” adlı məmulat “Koroğlu” MMC tərəfindən Azərbaycan Respublikasına idxal edilməmişdir. Belə

nəticəyə gəlmək olar ki, 2013-2016-cı illər ərzində Azərbaycan istehlakçıları arasında “Крем-Йогурт” adlı məmulata maraq olmamış, yalnız 12.10.2016-cı il tarixində Koroğlu MMC tərəfindən “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanı qeydiyyata alındıqdan sonra (ilkinlik tarixindən sonra) “N.A.N.T” MMC tərəfindən yenidən “Крем-Йогурт” adlı məmulat Azərbaycan Respublikasına idxal edilmişdir. Göstərilən hallar sübut edir ki, iddiaçının “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanunun 6-cı maddəsinin birinci hissəsinin (ç) bəndinə və 29-cu madəəsinə istinadı əsassızıdır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsini rəhbər tutaraq Apellyasiya şurası,

Qərara aldı:

1. Koroğlu” MMC-yə məxsus “Крем-Йогурт” adlı kombinasiya edilmiş əmtəə nişanının qeydiyyatına qarşı (30-cu (konfetlər) və 35-ci (30-cu sinifdə göstərilən əmtəələrin satışı üzrə xidmətlər) siniflərin əmtəələri və xidmətləri 2016 1146 nömrəli qeydiyyat) İstehsalat Birliyi “Konti” Xüsusi Səhmdar Cəmiyyəti, Ticarət Evi “Konti” Məhdud Məsuliyyətli Cəmiyyəti və “KONTI-RUS” Səhmdar Cəmiyyətinin nümayəndəsi A.M.Kərimov tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsassız hesab edilsin və iddia təmin edilməsin.

3. Apellyasiya şurasının qərarının alındığı tarixdən Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri M.B.Babayev

Üzvləri: N.F.Nəsibova

F.İ.Məmmədov

N.A.Hacıyeva

Ə.M.Qarayeva

R.N.Hüseynəliyev